**Pərvanə.** Laçın Azərbaycan üçün mühüm strateji əhəmiyyət daşıyır / Pərvanə // 525-ci qəzet. - 2020. - 3 dekabr . - **№ 166**. - S. 5.

**Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladığı 10 noyabr tarixli bəyanta uyğun olaraq Ağdam, Kəlbəcər rayonlarının ardınca 1 dekabrda Laçın rayonu da işğaldan azad edildi. Azərbaycanın hərbi müstəvidə qazandığı qələbə imkan verdi ki, düşmən işğalçı mövqeyindən geri çəkilsin və bir güllə atmadan Ağdam, Kəlbəcər, Laçın rayonlarını geri qaytarsın.**

Laçın zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri olan rayondur. Ekspertlər Laçın rayonunun mühüm strateji əhəmiyyətə malik olduğunu vurğulayırlar. Belə ki, bu rayon Ermənistanı Dağlıq Qarabağla birləşdirən dəhliz rolunu oynayır. Laçın işğal edildikdən sonra Ermənistanla Dağlıq Qarabağ arasında əlaqə yarandı və torpaqlarımızın işğalı asanlaşdı. Və bu gün Laçının geri qaytarılması tarixi əhəmiyyət daşıyır.

Düşmən işğaldan azad edilmiş torpaqlarda nə varsa məhv edib. Azərbaycan xalqının milli sərvətləri talanıb. Təbii ki, Azərbaycan yaxın gələcəkdə ermənilərin Azərbaycanın təbii sərvətlərini talan etməsi, maddi-mədəni irsimiz, tarxi, dini abidələrimizi dağıtması ilə bağlı beynəlxalq səviyyədə məsələ qaldırılacağı, günahkarların məsuliyyətə cəlb olunmasına çalışacaq və maddi təzminat tələb edəcək.

Azərbaycan dağıdılmış bölgələri bərpa etmək, vətəndaşlarımızın normal həyatı üçün bütün addımların atılması, işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə qərargahı yaradılıb, praktiki tədbirlərin həyata keçirilməsinə başlayıb.

Prezident İlham Əliyev Laçının işğaldan azad edilməsi ilə bağlı xalqa müraciətində geniş çıxış edib, bir sıra mühüm məsələlərə toxunub, Azərbaycan Ordusunun şanlı qələbəsindən, vəhşi düşmənin işğal etdiyi ərazilərimizi tamamilə dağıtdığını deyib. Müharibə dövründə ağır məğlubiyyətə düçar olan Ermənistan ordusunun 30 ilə yığdığı hərbi texnika 44 günə məhv edilib.

İqtisadçı deputat Vüqar Bayramov da hesab edir ki, Laçın Azərbaycan üçün mühüm strateji əhəmiyyət daşıyır: "28 il öncə 264 vətəndaşımızın şəhid olduğu, 65 nəfərin girov düşdüyü və 103 sakinin əmək qabiliyyətini itirdiyi döyüşlərdən sonra Laçın rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. İşğaldan sonra 66 minə yaxın Laçın sakini ölkəmizin 59 şəhər və rayonlarında məskunlaşdı.

Laçın rayonu iqtisadi potensialına görə Azərbaycanda xüsusi seçilən bölgələrimizdəndir. İşğaldan öncə rayonda əsas inkişaf etmiş sahə kənd təsərrüfatı, xüsusilə də heyvandarlıq idi. Bununla yanaşı, meyvəçilik, tütünçülük, üzümçülük, taxılçılıq, arıçılıq inkişaf etmiş sahələrindən hesab olunurdu. İşğaldan öncə Laçın rayonunda fəaliyyət göstərən sənaye müəssisələri daha çox xammal növlərinin emalına əsaslanmışdı. Laçın, həmçinin, zəngin təbii ehtiyatlara malikdir. Rayonda civə, xromit, mərmər, üzlük tikinti daşları və digər faydalı qazıntı ehtiyatları var.

28 illik işğal Laçın rayonun potensialından istifadəyə imkan vermədi. Dövlət Statistika Komitəsinin məlumatına görə, Laçın rayonuna məxsus müəssisə və təşklatlarda 2019-cu ildə cəmi 27 milyon 326 min manatlıq məhsul istehsal olunub. İşğal nəticəsində Laçın rayonuna dəyən ziyan on milyard dollarla ölçülür".

Deputat Hikmət Babaoğlu deyib ki, Laçın rayonunun işğaldan azad edilməsilə Azərbaycanın ən yeni siyasi tarixinin daha bir mərhələsi arxada qaldı. Müqayisəli təhlil aparmaq istəsək görəcəyik ki, 2020-ci il sentyabr ayının 27-dən başlayaraq dekabr ayının 1-nə qədər davam edən bu mərhələ cəmi 64 gün çəksə də, əslində, nəinki Azərbaycanda, bütövlükdə Cənubi Qafqazda tamamilə fərqli və yeni bir eranın başlanğıcını yaratdı. Ona görə də 44 günlük aktiv müharibə fazası və sonrakı 20 gündə 3 rayonumuzun bir güllə atılmadan azad edilməsi elə bir mühüm hadisədir ki, xalqımızın tarixinə qızıl hərflərlə yazıldı. Yəni təqribən 100 il davam edən və Dağlıq Qarabağ problemi adlandırılan məsələ birdəfəlik və həmişəlik heç bir status olmadan həll  edildi.

Deputatın sözlərinə görə, hazırda Azərbaycan yeni reallıq yaratmaqla özünə mühüm strateji perspektiv təmin edib. Bu reallığı yaradan Azərbaycan Prezidenti İlham Əliyev Laçın rayonun işğaldan azad edilməsi münasibətilə xalqımıza müraciət edərkən bir sıra mühüm məsələlərə toxunub: "O, cümlədən milli iradəmizə qarşı addım atmaq niyyətində olanlara yenə sərt ismarıclar göndərərək bildirdi ki, əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır. Noyabrın 10-da imzalanmış bəyanata əgər kimsə müdaxilə etmək istəsə, bizim sərt mövqeyimizi görəcək. Belə cəhdlər var. Bu cəhdlərin bir məqsədi var ki, bu razılaşma pozulsun. Çünki bu razılaşma bəzilərini çox qıcıqlandırır ki, artıq burada yeni təhlükəsizlik formatı yaranıbdır. Türkiyə-Rusiya Birgə Mərkəzinin yaradılması bəyanatda təsbit edilib. Eyni zamanda, burada təhlükəsizlik tədbirlərinin görülməsi və bəyanatın müddəalarının icra edilməsi bəzilərini qıcıqlandırır. Ancaq bizim işimizə, əldə edilmiş razılaşmaya heç kim müdaxilə edə bilməz. Bu fikirlər bir daha Azərbaycanın qətiyyətini, milli iradəsini göstərməklə eyni zamanda, hələ də yaranmış yeni reallığı həzm etməyən, onu pozmaq istəyənlərin olduğunu göstərir. Ancaq bütün bunlar şübhəsiz ki, yeni reallığı dəyişə bilməz və hazırda Azərbaycan regionun lider və qalib ölkəsi kimi öz yeni gələcəyini inşa edir".

H.Babaoğlu vurğulayıb ki, Prezident İlham Əliyev yeni mərhələdən danışarkən bildirdi ki, bizim ölkəmiz üçün yeni dövr başlayır: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik, güclü iradə göstərəcək. Doğurdan da ölkəmizdə hamı müşahidə etdiyi təcrübədən bilir ki, erməni vəhşi quldurları tərəfindən dağıdılan, viran edilən kəndlərimiz, şəhərlərimiz ən qısa zamanda bərpa edilərək məskunlaşdırılacaq, insanlarımız öz doğma yurdlarına qayıdacaqlar".

**PƏRVANƏ**